UOT 341.01

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN ƏSAS TİPLƏRİ

**H.B. MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***Hbg66@mail.ru***

*Beynəlxalq münasibətlərin tiplərini müəyyənləşdirmək üçün ilk növbədə bu münasibətlərin təbiətini təhlil etmək lazımdır. Müasir siyasi elmdə beynəlxalq münasibətlərin təbiətinə və mahiyyətinə müxtəlif yanaşmalar mövcuddur. Məsələn, Qərbdə, əsasən beynəlxalq münasibətlərə bioloji yanaşmadan istifadə olunur. Bu yanaşmanın tərəfdarları insan eqoizmindən irəli gələn «təcavüzkarlıq instinkti»ndən çıxış edərək, fikirlərini əsaslandırırlar.*

**Açar sözlər:** Beynəlxalq münasibətlər, dövlətlərarası münasibətlər, xarici siyasət, Avropa, beynəlxalq təşkilatlar, Avropa İttifaqı, NATO, Avropa Şurası, Qərbi Avropa İttifaqı, ATƏT, BMT, MDB, Varşava Müqaviləsi iştirakçıları, SEATO, SENTO.

Dövlətlərarası münasibətlər hər zaman bəşəriyyətin siyasi həyatında mühüm rol oynamışlar. Müxtəlif dövrlərdə yaşamış mütəfəkkirlər planetar miqyasda ideal cəmiyyət quruluşunun yaradılması, dünyada «əbədi sülhün» təmin olunması, «ümumavropa evinin», «ümumdünya kooperativinin» qurulması üçün hər zaman axtarışda olmuş və bunun təmin olunması üçün bir sıra nəzəriyyələr irəli sürmüşlər. Bu gün isə dünya nizamı müxtəlif tarixi, sosial-iqtisadi və mədəni inkişafın mərhələsində olan beynəlxalq siyasi sistemdəki 200-dən artıq dövlətin davranışı əsasında formalaşır (1, 213).

Beynəlxalq münasibətlərin tiplərini müəyyənləşdirmək üçün ilk növbədə bu münasibətlərin təbiətini təhlil etmək lazımdır. Müasir siyasi elmdə beynəlxalq münasibətlərin təbiətinə və mahiyyətinə müxtəlif yanaşmalar mövcuddur. Məsələn, Qərbdə əsasən, beynəlxalq münasibətlərə bioloji yanaşmadan istifadə olunur. Bu yanaşmanın tərəfdarları insan eqoizmindən irəli gələn «təcavüzkarlıq instinkti»ndən çıxış edərək, fikirlərini əsaslandırırlar. Bununla da, həm keçmişdə, həm də müasir dövrdə dövlətlərin siyasi təcavüzkarlığının «qaçılmazlığı» və «təbiiliyi» aydınlaşmış olur.

Beynəlxalq münasibətlərə psixoloji yanaşma da mövcuddur. Bu yanaşmanın tərəfdarları iddia edirlər ki, beynəlxalq münasibətlər və onunla bərabər

hərbi konfliktlər onları idarə edənlərin və ictimaiyyətin emosionallığı ilə müəyyən olunur.

Rusiya siyasi elmində beynəlxalq münasibətlər bəzən siyasi, iqtisadi, sosial, diplomatik, hüquqi, hərbi və humanitar əlaqələrin və dünya ictimaiyyətinin əsas subyektlərinin arasındakı münasibətlərin cəmi kimi əsaslandırılır (2, 95).

Beləliklə də, aydın olur ki, beynəlxalq münasibətlər bütün beynəlxalq reallığı, hər cür hadisə və prosesləri özündə birləşdirən mürəkkəb sistemdir. Bu dövlət və dövlətüstü maraqların müəyyənləşdirilməsi, müdafiəsi və həyata keçirilməsi mexanizmidir.

İstənilən dövlətin siyasi fəaliyyəti hər şeydən əvvəl daxili ictimai əlaqələrin, sonra isə xarici ictimai münasibətlərin əsasında formalaşır. Bunun nəticəsində isə daxili və xarici siyasət siyasət formalaşır. Əlbəttə ki, bu bölgünün özü də şərtidir. Çünki, son nəticədə həm xarici, hə də daxili siyasət mövcud dövlətdəki ictimai münastbətləri qoruyub saxlamaq və inkişaf etdirmək məqsədinə xidmət edir (3, 70).

Eyni zamanda, daxili siyasət kimi xarici siyasətin də özünəməxsus xüsusi özəllikləri vardır. Xarici siyasət daxili siaysətə nəzərən ikincidir. O, daxili siyasətin davamı kimi formalaşdırılır və müəyyən şərtlər daxilində həyata keçirilir.

Öz xüsusiyyətlərinə görə, beynəlxalq münasibətlər aşağıdakı növlərə bölünür: siyasi, iqtisadi, elmi-texniki, ideoloji, mədəni, hərbi.

Sadalananlar arasında, heç şübhəsiz ki, birinci yerdə beynəlxalq siyasi münasibətlər dayanır. Beynəlxalq siyasi münasibətlər dövlətlərarası əlaqələr prinsipi əsasında formalaşır. Dövlət siyasətinin predmeti olan dövlətlərarası münasibətlər, eyni zamanda, xarici siyasət bu siyasətin hazırlanması prosesindən və reallaşdırılması mexanizmindən kənarda siyasi xarakter daşıyır və beynəlxalq siyasi münasibətləri özündə ehtiva edir. İqtisadi, elmi-texniki, mədəni və hərbi əlaqələr isə xarici siyasətdən saparaq siyasi münasibətlərə, dövlətin xarici siyasətinin hazırlanması və reallaşdırılması prosesinə təsir edir.

Münasibətlərin müxtəlif tipləri təkcə subyektiv planda deyil, eyni zamanda, dövlət siyasətinin tərkib hissəsi kimi siyasi xarakter alır və obyektiv olaraq, siyasiləşir. Dövlətlərarası münasibətlər öz xüsusiyyətlərinin hesabına dövlətlərin əlaqələrində müxtəlif şəkildə cəmləşərək özünü spesifik siyasi formada büruzə verir. Dövlətlərin xüsusilə, siyasi əlaqələrini konkret tarixi münasibətlərdən (məsələn, iqtisadi, elmi-texniki, mədəni və s.) ayrılıqda götürülməsi mümkün deyildir. Əlbəttə ki, bu cür fərqləndirilmələr şərti xarakter daşıyır (4, 473).

Tarixin müxtəlif zaman kəsiyində beynəlxalq münasibətlərin iştirakçıları arasında müəyyən qarşılıqlı fəaliyyət mövcud olur. Bu əlaqələr isə hər bir dövrün strukturuna görə, xüsusi keyfiyyət daşıyır ki, buna da, beynəlxalq əlaqələr və ya beynəlxalq sistem deyilir.

Beynəlxalq münasibətlər sisteminin modelləşdirilməsinin bir neçə forması mövcuddur. Bu modellərdən birini amerikalı politoloq M.Kaplan irəli sürmüşdür. O, beynəlxalq sistem anlayışı altında təşkilat iştirakçılarının, dövlətlərin və ya dövlət qruplarının güclərinə əsasən, yerləşdirilməsi modellərini başa düşür.

Qeyd edək ki, «soyuq müharibə» illərində real beynəlxalq münasibətlər sistemi sərt və yumşaq bipolyar modellər arasında dəyişmişdir. 50-ci illərdə inkişaf tendensiyası sərt bipolyar sistemi istiqamətində getmişdir. Həmin dövr ərzində mübarizə aparan böyük dövlətlər çalışırdılar ki, təsir orbitlərinə daha çox dövlət yığsınlar.

50-ci illərin sonlarından başlayaraq beynəlxalq əlaqələr sistemi yumşaq bipolyar modelə doğru irəliləməyə başlamışdır. Asiya və Afrikanın yeni dövlətlərinin hesabına dünyada neytral dövlətlərin sayı artdı və onların da böyük əksəriyyəti «Qoşulmamaq Hərəkatı» formalaşdırdılar. BMT-nin və digər beynəlxalq təşkilatların fəaliyyətlərində müəyyən dəyişikliklər də oldu. Eyni zamanda, «Üçüncü dünya» dövlətləri arasında qruplaşma savaşlarının başlanması da regional konfliktlərin yaranmasına yol açdı.

Sovetlər Birliyinin parçalanması ilə əvvəlki beynəlxalq münasibətlər sistemi dəyişdi. Hələlik isə yeni beynəlxalq münasibətlər sisteminin konkret konturları haqqında danışmaq tezdir. Bir sıra dövlətlər, eyni zamanda, Rusiya sülhün və sabitliyin qorunub saxlanılması naminə BMT də daxil olmaqla beynəlxalq təşkilatlarla və bir-birilə əməkdaşlıq edən bir neçə güc mərkəzinin birləşdiyi yeni beynəlxalq münasibətlər sisteminin formalaşmasına tərəfdardır.

Müasir siyasi elm beynəlxalq əlaqələrin əsas iştirakçıları qismində suveren dövlətləri, dövlətlərarası birlikləri və dövlət və ya qeyri-dövlət beynəlxalq təşkilatlarını görür. Dövlətin beynəlxalq münasibətlərin iştirakçısı kimi əsas əlaməti onun suverenliyidir. Suverenlik o deməkdir ki, mövcud sosial subyekt özünkündən başqa digər hakimiyyəti, eyni zamanda, özü tərəfindən könüllü şəkildə götürdüyü öhdəliklərdən başqasını qəbul etmir.

Burada dövlət və milli suverenliyi ayırmaq məqsədəuyğundur. Milli suverenlik – millətin özünün mövcudluğunu qoruyub saxlamaq və inkişaf etdirmək üçün malik olduğu bütün hüquqlarının cəmi deməkdir. Milli suverenliyi reallaşdırmaq üçün mütləq dövlətin yaradılması vacib deyildir. Milli suverenlik milli-mədəni muxtariyyət, federativ və ya konfederativ dövlət formasında da reallaşdırıla bilər.

Milli dövlətlərlə yanaşı, beynəlxalq münasibətlər sistemində iştirak edən müxtəlif dövlətlərdən ibarət koalisiyalar, bloklar, inteqrasiya qruplaşmaları, eyni zamanda, beynəlxalq birliklər də beynəlxalq münasibətlər sistemindəki müstəqil rolunu itirmir. Beynəlxalq birlikdə onun üzvlərinin fəaliyyətini koordinasiya edən mexanizmlər də formalaşdırıla bilər. Bu cür mexanizmlərin funksiyası sadəcə informasiya mübadiləsindən, xarici siyasətin, ideologiyanın və strategiyanın elementlərinin razılaşdırılmasından və xarici siyasi aksiyaların təşkilindən ibarət ola bilər (6, 19-20).

Keçmiş beynəlxalq münasibətlər sistemində dövlətlər, bir qayda olaraq, hərbi əməliyyatlar aparmaq üçün koalisiyalar yaradırdılar. İkinci dünya müharibəsindən sonra dünyada bir sıra hərbi-siyasi birliklər yaradılıb: NATO, Varşava Müqaviləsi iştirakçıları, SEATO, SENTO və digərləri. Bu təşkilatların bir çoxu «soyuq müharibə»nin gedişi zamanı dağılıb, Varşava müqaviləsi isə müharibənin sonunda öz hüquqi qüvvəsini dayandırıb. Bundan sonra yalnız Şimali Atlantika təşkilatı – NATO öz mövcudluğunu qoruyub saxlayıb. Amma bu gün bu təşkilat müasir beynəlxalq münasibətlər sisteminin şərtlərinə uyğun olaraq, strategiyasını dəyişir, eyni zamanda, üzvlərinin sayını da artırır.

Bu gün Avropa Birliyinə inteqrasiya prosesi çərçivəsində siyasi və iqtisadi cəhətdən islahatlar həyata keçirməklə Avropa Cəmiyyətinə xidmət edə biləcək inteqrasiya qrupları daha cəlbedicidir. Faktiki olaraq, MDB də dövlətlərin birliyidir, amma o, boş, amorf xarakterli və perspektivi bəlli olmayandır.

«Beynəlxalq birlik» anlayışına yaxın olan təşkilatlanmalardan biri də «beynəlxalq təşkilat»dır. XX əsrdə beynəlxalq təşkilatlar beynəlxalq münasibətlər sisteminin mühüm faktoruna çevrilmişdir. Beynəlxalq təşkilatın əsas cəhətləri kimi aşağıdakıları göstərə bilərik:

- dövlətlərin beynəlxalq təşkilatın üzvləri kimi təşkilati-hüquqi birlik əsasında birləşməsi;
- qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün qüvvəyə minmiş dövlətlərarası akt əsasında birləşmə;
- təşkilatın adından çıxış edərək, qarşılıqlı əlaqədə olan dövlətlərlə və beynəlxalq münasibətlərin digər subyektləri ilə ünsiyyətdə olan təşkilatın orqanları vasitəsilə qəbul edilmiş akt və təşkilatın digər qanunları əsasında formalaşdırılmış funksiya və səlahiyyətlər çərçivəsində birləşmə (7, 85).

Müasir reallıqda beynəlxalq təşkilat xüsusi hal olaraq, birincisi, təşkilatın öz iradəsini göstərməsi, ikincisi, beynəlxalq təşkilatın milli təşkilatdan fərqlənməyə əsas verməsi ilə - öz adından çıxış edir.

Beynəlxalq təşkilat beynəlxalq münasibətlərin iştirakçı-dövlətlərin iştirak etdiyi, ümumi və xüsusi məsələlərlə bağlı intensiv danışıqlar aparan, öz aralarında mübahisəli məsələlərin həlli istiqamətində çıxış yolu axtaran, əlaqələr quran və inkişaf etdirən forumdur. Beynəlxalq təşkilat dövlətlərarası münasibətlərdə öz adından çıxış edərək, proseslərdə mühüm rol oynayır, eyni zamanda, digər dövlətlər və ya beynəlxalq təşkilatlarla bağladığı müqavilələri digər üzv dövlətlərə təqdim edir. Bu cür beynəlxalq təşkilat beynəlxalq hüququn subyekti qismində çıxış edir. Beynəlxalq münasibətlərin, eyni zamanda, beynəlxalq hüququn subyekti kimi, beynəlxalq təşkilatlar beynəlxalq qanunların möhkəmlənməsi və inkişaf etməsi, qarşılıqlı anlaşmanın möhkəmlənməsi, dövlətlər arasında qarşılıqlı sərfəli əlaqələrin güclənməsi, mübahisəli məsələlərin həlli, sülhün və təhlükəsizliyin dəstəklənməsi naminə konstruktiv rol oynamalıdır. Beynəlxalq təşkilatın bu cür rolu onun beynəlxalq münasibətlər sisteminin əsas elementinə çevirir. Beynəlxalq təşkilatlar beynəlxalq

münasibətlər sistemində pozitiv tendensiyaların qorunması və inkişafı naminə sülhsevər güc kimi stabilləşdirici rol oynamalıdır (8, 82-87).

Beynəlxalq təşkilatlar müasir beynəlxalq münasibətlər sistemində qarşılıqdı əlaqələrin güclənməsinə yardım edən bütün proseslərin sürətlənməsinə obyektiv təsir göstərir. Beynəlxalq əmək bölgüsü, kənd təsərrüfatının beynəlmiləlləşdirilməsi, dövlətlərin, təşkilatların bu və ya digər əlaqələrinin inkişafı işinin qanuniləşdirilməsi üçün hüquqi müstəvi formalaşdırır və qanunların həyata keçirilməsinə öz töfhəsini verir.

Bütün bunlarla yanaşı, beynəlxalq təşkilatlar öz qanunları əsasında fəaliyyət göstərir və inkişaf edir.

Elmi ədəbiyyatlarda beynəlxalq təşkilatların təsnifatının bir sıra prinsipləri təklif olunur. Bu baxımdan ən çox bu bölgü aşağıdakı kimi aparılır: dövlətlərarası və qeyri-hökumət təşkitlatları.

Amma bununla yanaşı, beynəlxalq təşkilatların qarışıq tipi də mövcuddur. Bu təşkilatlarda hökumət və ya dövlət orqanları, eyni zamanda, ictimai birliklər də yer alır.

Müasir dövrdə beynəlxalq təşkilat kimi, əlbəttə ki, əsas yeri Birləşmiş Millətlər Təşkilatı tutur. Təşkilat ümumi sülhün və təhlükəsizliyin qorunması üçün 1945-ci ildə yaradılmışdır. Lakin «soyuq müharibə» dönəmində böyük dövlətlərin BMT-dən öz məqsədləri üçün istifadə etmək cəhdləri sərgiləməsi təşkilatın bütövlükdə effektiv fəaliyyətinə zərbə vurmuşdur. Müasir şəraitdə isə ümid etmək olar ki, təşkilat yaradılarkən onun məqsəd və hədəflərinin elan olunduğu Nizamnaməsi sadəcə sənəd kimi qalmayacaq.

Son onilliklər ərzində ortaya çıxmış problemlərin həlli istiqamətində BMT-nin effektiv fəaliyyət göstərməsinə də ümidlər vardır. Bu, ilk növbədə, müəyyən mənada vacib və perspektivi olan sahələr ilə dünya kənd təsərrüfatının vəziyyət, çoxşaxəli iqtisadi fəaliyyət, ərzaq və ekoloji təhlükəsizlik və. s. ilə bağlıdır (9, 24).

Bir sözlə, bütün hökumətlərarası təşkilatlar BMT-nin təşkilat sisteminə və regional təşkilatlara bölünürlər. Beynəlxalq regional təşkilatlar yalnız BMT-nin Nizamnaməsi əsasında fəaliyyət göstərə və onlar müəyyən region üzrə dövlətlərin təhlükəsizliyi və əməkdaşlığı problemlərinin həlli ilə məşğul ola bilər.

Brüsseldəki Beynəlxalq təşkilatların tədqiqatı mərkəzinin məlumatlarına görə, bütün hökumətlərarası təşkilatların 80 faizini regional təşkilatlar təşkil edir.

## ƏDƏBİYYAT


1. Вершинин М.С. Политология (конспект лекций). СПб.: Издательство Михайлова В. А., 2003, с. 350.
2. Политология (проблемы теории). СПб.: Лань, 2000, 384 с.
3. Государственные, национальные и классовые интересы во внешней политике и международных отношениях // Мировая экономика и международные отношения. 1989, № 2, 70-72 с.
4. Merle M. La politique etrang, re//Traite de science politique. Paris, 1985, pp. 473-474; 522.

5. Кукулка Ю. Проблемы теории международных отношений. М.: 1980, 126 с.
6. Удалое В.В. Баланс сил и баланс интересов // Международная жизнь, 1990, № 5, с. 19-20.
7. Цыганков П.А. Международные отношения: Учебное пособие. М.: Новая школа, 1996, 320 с.
8. Aron R. Paix et Guerre entre les nations. Paris, 1984, p. 82-87.
9. Senarclens P.de. La politique intemationale. Paris, 1992, p. 24.

## ОСНОВНЫЕ ТИПЫ СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ И ИХ ОСНОВНЫХ УЧАСТНИКОВ

**Х.Б.МАМЕДОВ**

### РЕЗЮМЕ

Международные отношения между государствами всегда брали важное место в политической жизни человечества. Мыслители различной эпохи провели постоянные поиски и проекты учреждения на Земле "постоянного мира", здании "общеевропейского дома", создании "однородного мирового кооператива», идеальная социальная система в планетарном масштабе была развита. Сегодня мироустройство зависит от поведения на международной арене приблизительно 200 государств, которые являются на разных уровнях исторического, социально-экономического и культурного развития.

**Ключевые слова:** международные отношения, межгосударственные отношения, международная политика, Европа, международные организации, Европейский Союз, НАТО, Совет Европы, Союз Западной Европы, ОБСЕ, Минская группа ОБСЕ, ООН, члены Варшавского Договора, СЕАТО, СЕНТО

## THE BASIC TYPES OF MODERN INTERNATIONAL RELATIONS AND THEIR BASIC PARTICIPANTS

**H.B.MAMMADOV**

### SUMMARY

The international relations between states have always been the spotlight of the political life of mankind. Thinkers of different ages conducted constant searches and establishment projects on the Earth of "everlasting peace", the building of "common European home", the creation of "uniform world co-operative society», an ideal social system in planetary scale. Today, the world order depends on the behaviour of about 200 states on international arena which are at different levels of historical, social and economic and cultural development.

**Key words:** International relations, Interstate relations, international policy, Europe, international organizations, European Union, NATO, European Council, Western European Union, OSCE, The United Nations, members of the Warsaw Contract, SEATO, SENTO.